Azərbaycan Tibb Universtetinin

İctimai Səhiyyə fakultəsinin

01.11.2018-ci il tarixli

Fakultə Elmi Şurasının iclasının

# Q Ə R A R I

Protokol № 2

İCTİMAİ SƏHİYYƏ FAKÜLTƏSİNİN ELMİ ŞURASI QƏRARA ALIR:

I. 1. 2017-2018-ci tədris ilində yay peşə təcrübəsinin nəticələrinin müzakirəsi və tələbələrin peşə hazırlığının yaxşılaşdırılması işində fakültə kollektivinin vəzifələri barədə İstehsalat təcrübəsi şöbəsinin müdir müavini P. Mehdiyevin çıxışı qənaətbəxş hesab edilsin;

2. Epidemiologiya kafedrasının müdiri, prof. İ.Ə.Ağayevin kafedranın illik fəaliyyəti barədə hesabatı qənaətbəxş hesab edilsin.

II. Kafedra müdirlərinə tapşırılsın ki:

1. Universitet əməkdaşlarının müsabiqədə iştiraketmə hüququnun bilavasitə Bal-reytinq qiymətləndirmə sisteminə uyğun aparıldığını nəzərə alaraq kafedralarda bu işə nəzarət edən Metodik qrup yaradılsın;

2. Fakültə Metodik Komissiyasına rəhbərlik Epidemiologiya kafedrasının müdiri, ə.e.x, prof. İ.Ə.Ağayevə tapşırılsın və komissiyanın işçi qrupu haqqında məlumat 3 iş günü müddətində dekanlığa təqdim edilin;

3. Kurasiya sisteminin ləğvi ilə əlaqədar tədris proqramlarına yenidən baxılsın və mövzuların saatlara uyğunluğu təmin edilsin;

4. Elektron Universitetə keçidlə əlaqədar olaraq müəllimlərin kompüter biliklərinin təkmilləşdirilməsinə nəzarət gücləndi-rilsin;

5. Elmi işlə məşğul olan əməkdaşların nüfuzlu jurnallarda (Thomson Reuters, Scopus və s.) məqalələrinin dərc olunmasına diqqət artırılsın.

III. Dekanlığa tapşırılsın ki, nəzərdə tutulan işlərin yerinə yetirilməsinə nəzarəti gücləndirsin.

Sədr: t.e.d., dosent A.Ə.Ağayev

Elmi katib: t.ü.f.d. Y.H.Hacıyeva